# AZƏRBAYCAN RESPUBLİKASI
# BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

# SƏRƏNCAMI

---

№ 60 "13" Aprel 2026-cı il

**Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 953 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" icrası ilə əlaqədar Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Aparatında məsul şəxsin müəyyən edilməsi və Aparatın 2026-cı il üzrə İş Planının təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 953 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" (bundan sonra – Fəaliyyət Planı) ölkənin texnoloji transformasiyasını, dövlət idarəetməsinin rəqəmsallaşdırılmasını və innovasiya əsaslı iqtisadiyyata keçidi nəzərdə tutan strateji əhəmiyyətli sənəd olaraq təqdim edilmiş və aidiyyəti dövlət orqanları və s. qurumlarla yanaşı yerli icra hakimiyyətlərinə də müvafiq tapşırıqlar verilmişdir.

Əsas xidmət sahələri *informasiyaya əlçatanlıq, biznes və İqtisadiyyat, dövlət və elektron xidmətlər, gündəlik həyat və maliyyə, rəqəmsal savadlılıq* kimi xarakterizə edilən rəqəmsal texnologiyalar məlumatları daha əlçatan, prosesləri daha sürətli və həyatı daha rahat etməyə xidmət edir ki, bu xüsusda istinad olunan Fəaliyyət Planı müasir dövrdə rəqəmsal inkişafın strateji əhəmiyyəti nəzərə alınaraq hazırlanmışdır.

Fəaliyyət Planı qarşıya qoyulmuş müddətdə rəqəmsal hökumət və elektron xidmətlərin inteqrasiyası; süni intellekt və innovasiya; rəqəmsal suverenlik və infrastruktur; insan kapitalı və iqtisadiyyat və icra mexanizmi kimi istiqamətləri və tədbirləri özündə ehtiva edir.

Sənədə əsasən qlobal trendlərin sürətlə yeniləndiyi bir dövrdə rəqabət üstünlüyü əldə etmək üçün ölkələrin öz strategiyalarını davamlı olaraq yeniləmələri əsas məqsəd hesab olunur. Eyni zamanda, Fəaliyyət Planında rəqəmsallaşmanın genişlənməsi ilə paralel olaraq kibertəhlükəsizlik strategiyasının fundamental şəkildə gücləndirilməsi istiqamətində zəruri həllərin vacibliyi də xüsusilə vurğulanır.

Sərəncama əsasən mövcud vəziyyətin təhlili ilə əlaqədar olaraq, son illərdə həyata keçirilən tədbirlər nəticəsində bu sahədə yaradılmış əhəmiyyətli normativ hüquqi bazaya istinad edilmişdir. Rəqəmsallaşma sahəsində son illərdə respublikamızda qəbul edilmiş normativ hüquqi aktlara əsasən verilən tapşırıqların icrası Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən nəzarətdə saxlanılır. RİH başçısı Aparatında rəqəmsal texnologiyaların istifadəsi, eyni zamanda, müasir dünyanın tələbləri çərçivəsində qlobal trendlərə uyğunlaşmaq istiqamətində zəruri addımlar atılır, lakin Sərəncamda da qeyd edildiyi kimi ölkənin rəqəmsal inkişafına mənfi təsir edən hallar mövcuddur (*innovasiya ekosisteminin zəifliyi, maliyyələşdirmə mexanizmlərinin çatışmazlığı, rəqəmsal idarəetmədəki boşluqlar, süni intellektin inkişafı üçün maneələr, kibertəhlükəsizlik riskləri, insan kapitalının və tənzimləyici mühitin yetərsizliyi*) ki, bununla bağlı RİH tərəfindən aidiyyəti qurumlarla birlikdə zəruri tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Binəqədi Rayon İcra Hakimiyyətində ötən illər ərzində İKT və rəqəmsal texnologiyaların tətbiqi istiqamətində bir sıra işlər görülmüşdür. RİH-in sahibi və (və ya) operatoru olduğu sistemlərin tətbiqi və təkmilləşdirilməsi istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müvafiq əmri ilə RİH-in sahibi və operatoru olduğu "1646 - Sakinlərin Müraciət Xidməti"nin yaradılmasında məqsəd vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanı formalaşdırmaq, göstərilən xidmət səviyyəsini yüksəltmək, dövlət-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəvidə inkişafına xidmət etmək, bununla da dövlət orqanı ilə cəmiyyət arasında əlaqəni gücləndirməkdən ibarətdir. Hazırda, RİH-in mülkiyyətçisi və istifadəçisi olduğu bu informasiya sisteminin qanunvericiliyin tələblərinə uyğun olaraq fərdi məlumatların informasiya sisteminin dövlət reyestrində qeydiyyata alınması istiqamətində tədbirlər həyata keçirilir. Vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində atılmış növbəti addımlar çərçivəsində elektron hökumətin əsas elementlərindən hesab edilən "Bir pəncərə" prinsipi ilə vətəndaşların istifadəsinə verilmiş e-tikinti, Rəqəmsal İcra Hakimiyyəti - rih.gov.az portalları vasitəsi ilə vətəndaşlara yerli icra hakimiyyətinə getmədən elektron müraciət etmək imkanı yaradılmışdır. Rih.gov.az portalı üzərindən RİH tərəfindən göstərilən elektron xidmətlərin sayının artırılması ilə bağlı aidiyyəti üzrə əlaqələndirici qurum – Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə rəsmi müraciət ünvanlanmışdır.

Respublikada digər dövlət və özəl sahələrdə olduğu kimi Binəqədi RİH-də də idarəetmənin və onun sistemliliyinin təmin olunmasında mühüm yerlərdən birini tutan sənəd dövriyyəsinin qurulması, sənədləşmə və sənədlərlə işin təşkili sahəsində mobilliyə, çevikliyə və optimallığa nail olmaq, beləliklə də, kağız məlumat daşıyıcılarından istifadənin azaldılması məqsədilə 2024-cü ildən RİH-də Mərkəzləşdirilmiş Elektron Sənəd Dövriyyəsi sistemi vasitəsi ilə daxili elektron sənəd dövriyyəsinin tətbiqinə keçilmişdir. Aidiyyəti qurum tərəfindən MESD vasitəsi ilə idarələrarası elektron sənəd dövriyyəsinin inteqrasiyası mərhələli şəkildə həyata keçirilir.

Fəaliyyət Planında verilmiş tapşırıqlara əsasən qarşıya qoyulmuş məqsədlərin həyata keçirilməsinin, əvvəlcədən müəyyənləşdirilmiş göstəricilərə uyğun nəticənin əldə edilməsinin effektivliyini qiymətləndirmək məqsədi ilə nəticə indikatorları (ilkin nəticələr, aralıq nəticələr və yekun nəticələr) müəyyənləşdirilmişdir.

Sərəncamda qeyd olunan hədəf göstəricilərinə, məqsədlərə və prioritet istiqamətlərə nail olmaq üçün Fəaliyyət Planına uyğun olaraq RİH başçısı Aparatının İş Planının hazırlanması, eyni zamanda, Fəaliyyət Planının 5.3-cü bəndinə əsasən RİH başçısı Aparatında rəqəmsallaşma, innovasiya, Sİ və kibertəhlükəsizlik üzrə funksiyanın icrasına məsul şəxsin təsbit edilməsi və onun fəaliyyətinin müvafiq sahələr üzrə müəyyən edilmiş strateji hədəflərlə əlaqələndirilməsi zəruridir.

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 953 nömrəli Sərəncamının 7.1. və 7.2.-ci bəndlərinin icrasının və həmin Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" üzrə tədbirlərin həyata keçirilməsinin təmin edilməsi məqsədi ilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndini rəhbər tutaraq

## QƏRARA ALIRAM:

1. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 953 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planına əsasən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Aparatının **2026-cı il üzrə İş Planı** təsdiq edilsin.
2. Fəaliyyət Planının 5.3-cü bəndində verilmiş tapşırığa əsasən Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini **Babayev Hacıbaba Adil oğlu** RİH başçısı Aparatında rəqəmsallaşma, innovasiya, Sİ və kibertəhlükəsizlik üzrə funksiyanın icrasına məsul şəxs təyin edilsin.
3. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının birinci müavini Hacıbaba Babayevə tapşırılsın ki, başçının müavini – Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsinin müdiri Sevinc Süleymanova və Aparatın struktur bölmələri tərəfindən Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 953 nömrəli Sərəncamının 7.1. (Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və tam icrasını təmin etsinlər) və 7.2.-ci bəndlərinin (Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrası barədə aylıq məlumatları hər növbəti ayın 10-dək Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə təqdim etsinlər), eyni zamanda, Fəaliyyət Planında müəyyənləşdirilmiş nəticə indikatorlarına uyğun olaraq RİH başçısı Aparatının 2026-cı il üçün İş Planında nəzərdə tutulmuş tədbirlərin müvafiq dövrlər üzrə icrasının nəzarətdə saxlanmasını təmin etsin.
4. Aparatın struktur bölmələrinin rəhbərlərinə tapşırılsın ki, Sərəncamın 7.2-ci bəndinin icrasının təmin etmək məqsədi ilə İş Planında nəzərdə tutulmuş tədbirlərin icrası barədə məlumatları hər ayın 5-dək Aparatın Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektorunun baş məsləhətçisi (əhali ilə işin təşkilatçısı) Aynur Quliyevaya təqdim etsinlər.
5. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Aparatının Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektorunun baş məsləhətçisi (əhali ilə işin təşkilatçısı) Aynur Quliyevaya tapşırılsın ki, Sərəncamın 7.2.-ci bəndinin icrasının təmin etmək məqsədi ilə Aparatın struktur bölmələri tərəfindən hər ayın 5-dək təqdim olunmuş məlumatlar əsasında hesabatı hazırlayıb Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə təqdim olunmasını təmin etsin.
6. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Aparatının Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın ki, Sərəncamın surətinin aidiyyəti üzrə çatdırılmasını təmin etsin.
7. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

*ƏSLİ İLƏ DÜZDÜR:*

**Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti • SƏNƏDLƏR ÜÇÜN

Binəqədi Rayon İcra Hakimiyyəti Başçısının
“___” aprel 2026-cı il tarixli ___ nömrəli
Sərəncamı ilə təsdiq edilmişdir

_______________ E.Allahverdiyev

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 953 nömrəli Sərəncamı ilə təsdiq edilmiş
“Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı” icrası ilə əlaqədar
Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Aparatının 2026-cı il üçün

# İŞ PLANI

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı struktur bölmələr | Digər icraçı struktur bölmələr | İcra müd-dəti | Fəaliyyət Planında müəyyən edilmiş nəticə indikatorları | | | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr | |
| **1. Rəqəmsallaşma sahəsinin inkişafı və təkmilləşdirilməsi** | | | | | | | | |
| **1.1.** | Dövlət xidmətlərinin Sİ əsaslı təşkili | RİH başçısı Aparatının aidiyyəti struktur bölmələri | Sosial-iqtisadi, memarlıq-tikinti məsələləri və rayon təsərrüfatı şöbəsi, Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektoru;<br><br>Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsi | 2028, dekabr | Sİ-nin tətbiq ediləcəyi azı 10 sosial və biznes “həyat hadisəsi” üzrə dövlət xidmətinin müəyyən edilməsi | Sİ əsaslı dövlət xidmətlərinin göstərilməsi üçün optimallaşdırılmış proseslər üzrə tədbirlər planının hazırlanması və azı 5 dövlət xidmətinin pilot rejimdə göstərilməsi | Xidmətlərin Sİ əsaslı göstərilməsi və vətəndaş məmnuniyyəti indeksinin rüblük əsasda ölçülməsi | A.Quliyeva<br>S.Əliyev<br>A.Abbasova<br>R.Həsənov<br>S.Mənəfov<br>N.Allahverdiyev<br>Z.Nəcəfova<br>Ş.Musayev<br>V.Eyvazova<br>S.Əliyev |
| **1.2.** | Elektron xidmətlərin reqlamentlərinin hazırlanması və “Dövlət | RİH başçısı Aparatının aidiyyəti struktur bölmələri | Sosial-iqtisadi, memarlıq-tikinti məsələləri və rayon təsərrüfatı şöbəsi, Sosial- | 2026, dekabr | Dövlət xidmətlərinin Dövlət Xidmətlərinin Elektron Reyestrinə daxil edilməsi | Dövlət Xidmətlərinin Elektron Reyestri ilə “Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və | Elektron dövlət xidmətlərinin 100 faizinin vahid reyestrdə reqlamentləşdirilməsi | A.Quliyeva<br>S.Əliyev<br>A.Abbasova<br>R.Həsənov<br>S.Mənəfov |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə daxil edilməsi | | iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektoru;<br><br>Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsi | | | elektron xidmətlərin vahid reyestri" arasında inteqrasiyanın təmin edilməsi | | N.Allahverdiyev<br>Z.Nəcəfova<br>Ş.Musayev<br>V.Eyvazova<br>S.Əliyev |
| 1.3. | Dövlət xidmətlərinin iş axınlarının optimallaşdırılması | RİH başçısı Aparatının aidiyyəti struktur bölmələri | Sosial-iqtisadi, memarlıq-tikinti məsələləri və rayon təsərrüfatı şöbəsi, Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektoru;<br><br>Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsi | 2027, dekabr | Dövlət xidmətlərinin 90 faizi üzrə mövcud iş axınlarının xəritələnməsi | Optimallaşdırılmış iş axınlarının hazırlanması və proaktiv xidmətlər göstərilməsi, həmçinin rəqəmsallaşdırılması mümkün olan dövlət xidmətlərinin azı 70 faizinin müəyyənləşdirilməsi | Optimallaşdırılmış iş axınları əsasında xidmətlərin azı 40 faizinin proaktiv və ya tam rəqəmsal formada təşkili | A.Quliyeva<br>S.Əliyev<br>A.Abbasova<br>R.Həsənov<br>S.Mənəfov<br>N.Allahverdiyev<br>Z.Nəcəfova<br>Ş.Musayev<br>V.Eyvazova<br>S.Əliyev |
| 1.4. | Dövlət orqanları (qurumları) tərəfindən rəqəmsallaşma, Sİ, innovasiya və kibertəhlükəsizlik üzrə yol xəritələrinin hazırlanması (əsas fəaliyyət göstəriciləri qeyd edilməklə) və icrasının təmin | RİH başçısı Aparatının aidiyyəti struktur bölmələri | Sosial-iqtisadi, memarlıq-tikinti məsələləri və rayon təsərrüfatı şöbəsi, Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektoru | mütəmadi | Dövlət orqanları (qurumları) tərəfindən rəqəmsallaşma, Sİ, innovasiya və kibertəhlükəsizlik üzrə illik yol xəritələrinin hazırlanması (əsas fəaliyyət göstəriciləri qeyd edilməklə) və RİNN-lə razılaşdırılması | Yol xəritələrinin koordinasiyalı icrası, nəticələrinin rüblük əsasda RİNN-lə paylaşılması | Rəqəmsallaşma səviyyəsinin diaqnostikası qiymətinin azı 50 bala (müəyyən edilmiş) çatdırılması | S.Əliyev<br>A.Abbasova<br>R.Həsənov<br>S.Mənəfov<br>N.Allahverdiyev<br>Z.Nəcəfova<br>Ş.Musayev<br>V.Eyvazova<br>S.Əliyev<br>A.Quliyeva |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | edilməsi | | | | | | | |
| 1.5. | Açıq məlumatların siyahısının müəyyən edilməsi və "Açıq məlumatlar" portalına inteqrasiya edilməklə hüquqi və fiziki şəxslərin həmin məlumatlara çıxışının təmini, konfidensial olmayan bütün məlumatların maşın tərəfindən oxuna bilən formatda API-lər vasitəsilə aidiyyəti dövlət orqanları (qurumları)biznes və startap ekosistemi üçün əlçatan edilməsi | RİH başçısı Aparatının aidiyyəti struktur bölmələri | Sosial-iqtisadi, memarlıq-tikinti məsələləri və rayon təsərrüfatı şöbəsi, Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektoru | mütəmadi | Açıq məlumat dəstlərinin siyahısının müəyyən edilməsi | Azı 1000 açıq məlumat dəstinin "Açıq məlumatlar" portalına inteqrasiyasının həyata keçirilməsi, açıq proqramlaşdırma interfeysləri vasitəsilə dövlət xidmət və məlumatlarının özəl sektor və startaplar üçün servislər vasitəsilə təqdim edilməsi | Hüquqi və fiziki şəxslərin açıq məlumatlara "Açıq məlumatlar" portalı vasitəsilə çıxışının təmin edilməsi | S.Əliyev<br>A.Abbasova<br>R.Həsənov<br>S.Mənəfov<br>N.Allahverdiyev<br>Z.Nəcəfova<br>Ş.Musayev<br>V.Eyvazova<br>S.Əliyev<br>A.Quliyeva |
| **2. İdarəetmə və monitorinq** | | | | | | | | |
| 2.1. | Hər bir dövlət orqanı (qurumu) rəhbərinin müavini səviyyəsində rəqəmsallaşma, innovasiya, Sİ və kibertəhlükəsizlik üzrə funksiyanın icrasına məsul şəxsin təsbit | Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsi;<br><br>Sosial-iqtisadi, memarlıq-tikinti məsələləri və rayon təsərrüfatı şöbəsi, Sosial- | | 2026, iyun | Məsul şəxslərin vəzifə təlimatlarının yenilənməsi və hər bir qurum üçün "ƏFG kartı"nın (xidmətlərin rəqəmsallaşma faizi, kiberinsidentlərin sayı və s.) təsdiqi; Rəqəmsallaşma, Sİ, | Məsul şəxslərin performansının bu ƏFG-lər əsasında rüblük qiymətləndirilməsi üçün RİNN tərəfindən idarəetmə panelinin istismara verilməsi | Məsul şəxslərin mükafatlandırılması və fəaliyyətinin davamlılığının hədəflərə çatma dərəcəsindən asılı hala gətirilməsi | S.Əliyev<br>A.Quliyeva |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | edilməsi və onun fəaliyyətinin müvafiq sahələr üzrə müəyyən edilmiş strateji hədəflərlə əlaqələndirilməsi | iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektoru | | | innovasiya və kibertəhlükəsizlik üzrə mütəxəssislərin dövlət qurumlarında əməkhaqqı sisteminə yenidən baxılması | | | |
| **2.2.** | Dövlət orqanlarında (qurumlarında) layihələrin vaxtında və keyfiyyətlə icrasını təmin edən Layihə İdarəetmə Ofisinin fəaliyyətinin təşkili | Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsi;<br><br>Sosial-iqtisadi, memarlıq-tikinti məsələləri və rayon təsərrüfatı şöbəsi, Sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlil sektoru | | 2026, dekabr | RİNN-in metodiki dəstəyi ilə dövlət orqanlarının (qurumlarının) rəqəmsal inkişaf layihələrinin idarə edilməsi üzrə metodiki çərçivənin yaradılması | Layihələrin icrasında yaranan “bloklayıcı” amillərin (normativ hüquqi, maliyyə, kadr) rəhbərlik səviyyəsində operativ həlli üçün həftəlik iclasların keçirilməsi | Tədbirlərin 80 faizdən çoxunun icrasına nail olunması | S.Əliyev<br>A.Quliyeva |